UOT 81`28

LEYLA SƏFƏROVA*

# AZƏRBAYCAN DİLİNİN CULFA ŞİVƏLƏRİNDƏ SAMİTLƏRİN ARTIMI

*Məqalədə Azərbaycan dilinin Culfa şivələrində mövcud olan fonetik hadisələrdən biri olan samitlərin artımından bəhs edilir. Sözlərin əvəlində y, h samitlərinin, sözlərin ortasında y, d, b, v, m samitlərinin, söz sonunda n, t səslərinin artımının araşdırılması və nümunələrin təhlilindən aydın olur ki, samit əvəzlənməsi tarixən dilimizdə, yazılı abidələrimizdə mövcud olmuşdur. Bu da onu göstərir ki, əslində çağdaş Azərbaycan dilində samit artımı adlandırdığımız bu hadisə sözlərin qədim şəkilləridir. Məqalədə tədqiq olunmuş hər bir səs artımı hadisəsi Anadolu türkcəsinin dialekt və şivələri ilə, eləcə də bir sıra türk dillərinin dialekt və şivələri, ədəbi dilləri ilə müqayisə edilərək öyrənilmişdir. Beləliklə, Azərbaycan dilinin nə qədər qədim köklərə malik olduğu öz əksini tapır.*

**Açar sözlər:** *Culfa, dialekt, şivə, samit artımı, fonetik hadisə*

Azərbaycan ədəbi dilindən fərqli olaraq onun dialekt və şivələrində sözlərin əvvəlində, ortasında və sonunda müəyyən samitlərin artımı müşahidə olunur. Lakin səs artımı hadisəsi anlayışı şərti xarakter daşıyır, çünki bu silsilədən olan sözlər dilimizdə qədim zamanlarda işlənmiş variantlardır ki, günümüzdə dialekt və şivələrimizdə qorunub saxlanılmaqdadır. Odur ki, samitlərin artımı hadisəsinin müqayisəli-tarixi prinsiplər əsasında öyrənilməsi lazımdır. Bu hadisə özünü Naxçıvan dialekt və şivələrində, o cümlədən Culfa şivələrində də müəyyən dərəcədə göstərir. Samitlərin artımı Culfa şivələrində üç formada təzahür edir:

1. Sözlərin əvvəlində
2. Sözlərin ortasında
3. Sözlərin sonunda

*Sözlərin əvvəlində samitlərin artımı hadisəsi:*

**y** *səsinin artımı.* Türk dillərində mövcud olmuş qədim xüsusiyyətlərdən biri olan, xüsusilə Zaqatala-Qazax şivəsində daha qabarıq nəzərə çarpan y səsinin artımı Culfa şivələrində *yenmək, yendirməx', yeniş, yesir* kimi az sayda sözlərdə baş verir.

Ümumiyyətlə, Azərbaycan dilinin dialekt və şivələrində sözlərin əvvəlində *y* səsinin olmasının dilimizin tarixi ilə bağlı yazılı abidələrində də mövcudluğu bu səs hadisəsinin qədimliyini göstərir. "Divani-lüğət-it-türk"dəki *yıldız, yılan, yıl* kimi sözlər buna əyani misallardır.

Bizim samit artımı kimi qeyd etdiyimiz bu fonetik hadisəyə professor B.Çobanzadə tam başqa prizmadan yanaşaraq onu səs düşümü adlandırır. Onun *y* səsinin düşümü adlandırdığı bu xüsusiyyəti saxlayan yeganə ləhcənin Azəri ləhcəsi olduğunu qeyd edir. Alim belə hesab edir ki, bütün türk dillərində y səsi ilə başlayan sözlərdə yalnız Azərbaycan dilində *y* səs düşümü baş verir (1, s.180). Professor Çobanzadə Azərbaycan dilinin materialları əsasında M.F.Axundzadənin dilini başqa dillərlə müqayisə edərək fərqli cəhətlərə rast gəldiyini və onun əsərlərində *yüz, yılxı, yuca, yulduz* və s. kimi sözlərin işləndiyini qeyd edir.

V.V.Radlovun lüğətində və İbn Mühənnanın dilində rast gəlinən dil faktları ilə bağlı qeyd olunan fikirlərə əsaslanaraq "İraq-türkman ləhcəsi" kitabında müəlliflər İraq-türkman ləhcəsində rast gəlinən yüz, yılxı, yegit və s. kimi sözlərdə heç bir səsin artımı hadisəsin olmadığını qeyd edirlər (7, s.91).

Sözlərin əvvəlində *y* səsinin artımı Meğri şivələrində də mövcuddur: *yəlov/yolov, yüz< üz, yemməx< enmək, yudqımma, yüyitmax* (5, səh 146).

Qapalı saitlərdən əvvəl cingiltili, sürtünən *y* samitinin işlənməsi Təbriz şivələrində də *yendir, yüzmax, yürəx', yüzbəyüz, yeniş, yılan, yüzüx'* kimi nümunələrdə qorunub saxlanılmaqdadır.

Eyni zamanda Türkiyə türkcəsinin bir çox dialekt və şivələrində *y* samitinin artımı mövcuddur: *yip<ip, yırak<ırak* (9, s.31), *yılan<ılan, yutmak<utmak* (2, s.86), *yendiridi<indiriyordu, yüzümimizi<üzümümüzü* (84, s.17), *yedirneyi<Edirneyi, yengelek<engerek, yibrik<ibrik, yel<el, yesir<esir* (8, s.58)

*y* səsinin artımı kimi qiymətləndirdiyimiz bu hadisəni eyni qrupa daxil olduğumuz bir sıra türk dillərinin ədbi dilində də görmək mümkündür: türkmən dilində *yiqit, yitqi, yiti, yüzmek*; başqırd dilində *yıl, yılan, yılı<ılıq;* türkiyə türkcəsində *yıl, yüz<üz, yılan, yıldız, yıldırım* (10, s.95)

**h** səsinin artımı. *h* samitinin artımı hadisəsinə demək olar ki, bütün dialekt və şivələrimizdə müəyyən dərəcədə rast gəlmək mümkündür. Xüsusən Zaqatal-Qax şivəsində daha çox rastlanan bu fonetik hadisə Culfa şivələrində məhdud sayda sözlərdə baş verir: *həylə/heylə, həlbət/həlbətdə, hasant/hasat, haçar*

Azərbaycan dilinin Zaqatala-Qax şivəsində sözlərin əvvəlində *h* səsinin artımı *o* işarə əvəzliyinin hallanmasında özünü büruzə verir: *hona, honda, honnan*

*h* səsinin artımı Meğri şivələrində nisbətən az yayılmış fonetik hadisədir: *hasa<əsa, həylə/hayla, hasant, həlbətta, həgər* (5, s.147)

*h* samitinin İraq-türkman ləhcəsində əsasən, açıq, qismən də qapalı saitlərlə başlanan sözlərin əvvəlinə artırılır: *halav/halay, haluca, heywan<eyvan*

*h* səsinin artımına Təbriz dialektində açıq *a, ə,* qapalı *e, i* saitlərindən əvvəl təsadüf edilir: *hasand, hambar, həlbətdə, helə*

Türkiyə türkcəsinin dialekt və şivələrində də *h* səsinin artımı mövcuddur: *helbet<elbet, haçız<açız, hayran<ayran* (8, s.58), *hayva<ayva* (4, s.17), *helbet, hataş* (3, s.45), *hurmak<urmak, haşlama<aşlama, helbet<elbet* (2, s.87)

*h* samitinin artımına qaqauz ədəbi dilində də rast gəlmək olur: *hadet, hambar, harap*

Maraqlıdır ki, h səsinin artımı haqqında ilk dəfə M.Kaşğarlı məlumat vermişdir. O, "Divani-lüğət-it-türk" əsərində türk tayfa dillərinin fonetikasından bəhs edərkən bu dillərdə sözün əvvəlində *h* səsinin işlənməsini hind dilinin təsiri ilə əlaqələndirir : *hata<ata, hana<ana*

Professor Şirəliyev M.Kaşğarinin bu fikrinə münasibət bildirərək yazır: "Əlbəttə, M.Kaşğarinin bu fikrində müəyyən dərəcədə həqiqət vardır. Həqiqətən, *h*-laşma hadisəsi ərəb dili təsirinə məruz qalan və Qafqaz-iber dilləri əhatəsində olan türk dillərində özünü göstərdiyindən, ola bilsin ki, bu həmin dillərin təsiridir" (10, s.96).

*Sözlərin ortasında samitlərin artımı hadisəsi:*

**y** səsinin artımı. Daha çox qərb dialekt və şivələrində müşahidə olunan sözlərin ortasında *y* samitinin artımı hadisəsi Culfa şivələrində *fayız, zəyif, şayir, xayın<xain, aylilə, Nayibə, tiyatır, matiryal* kimi nümunələrdə müəyyən dərəcədə mövcuddur. Prof. Şirəliyev sözlərin ortasında *y* samitinin artımından bəhs edərkən bu hadisənin səbəbinin alınma sözlərdə qalınlaşma ilə bağlı olduğunu göstərir.

*y* samitinin sözlərin ortasında artımı hadisəsi Türkiyə türkcəsinin Zonguldak-Bartın şivələrində (*köyündenyim, açyım, zenginiyüz, aylesindenyim, böyükyüm, vardıydı, söyündürdük, vesayire, İsmayilin*), Edirne şivələrində (*pusulya, alaysın, ayileyi, Sayıt<Sait*) işlənməkdədir.

Meğri şivələrində y səsinin söz ortasında artımı daha çox alınma sözlərdə müşahidə olunur: *nayillaş, nayıp, mayıl, bayıs, eylan, eytibar*

Təbriz dialektində sözlərin ortasında y səsinin artımı hadisəsinə, əsasən, qoşa saitli alınma sözlərdə iki sait arasında təsadüf olunur: *rəyis, dayirə, bayis, zəyif, xayin*





İraq-türkman ləhcəsində sözlərin ortasında *y* samitinin artımı sözlərin əvvəlində *y* səsinin artımı qədər geniş yayılmışdır: *üyçin/iyçin, ziynət, bayhoş<bihuş, almaynan, baltaynan, quşiymiş, varıydı, bəyhudə<bihudə, gəzməliydim*

**h** *samitinin artımı.* Culfa şivələrində sözlərin ortasında *h* səsinin artımı *ehdibar, camahat, sahat, nəhlət<lənət* kimi məhdud sayda sözlərdə baş verir.

Bu səs artımına Meğri şivələrində *sahat, məhlim<məlum, qanahat, Şucahat, nəhlət* kimi sözlərdə rast gəlinir (5, s.148).

*h* samitinin artımına Təbriz dialektində söz ortasına məhdud sayda sözlərdə müşahidə edilir: *dəhvən<dəfə, sahat, camahat*

Sözlərin ortasında *h* səsinin artımı Türkiyə türkcəsinin Zonguldak-Bartın bölgəsinin bütün şivələrində də mövcuddur: *zahden, zahdı* (3, s.45)

*h* səsinin artımı İraq-türkman ləhcəsində alınma sözlərdə baş verən fonetik hadisədir: *kəhkül, məhsul<məsul, nəhlət, sahat*

**d** *səsinin artımı.* Culfa rayon şivəsində sözlərin ortasında *d* samitinin artımına *yımırtda/yumurtda* sözündə rast gəlinmişdir.

**b** səsinin artımı. Bu səs hadisəsi çombax sözündə Teyvaz şivəsində mövcuddur.

*b* səsinin artımı sözlərin əvvəlində İraq-türkman ləhcəsində əsasən alınma sözlərdə rast gəlinir: *iskəmbli (stul)*

**v** *samitinin artımı.* Bu səs artımına Teyvaz kəndində xüsusilə yaşlı nəslin nümayəndələrinin danışığında *duva, suval* sözlərində rastlanır.

**m** samitinin artımı. Söz ortasında m samitinin artımına Saltaq kənd şivəsində *durumba<truba* sözündə təsadüf olunur.

Sözlərin ortasında *m* samitinin artımına Türkiyə türkcəsinin Edirne şivələrində *(çemkirgelerle<çekirgeler)* Kuzeydoğu Bulqarıstan Türk şivələrində *(lambır<ıhlamur)* təsadüf olunur.

*Sözlərin sonunda samitlərin artımı hadisəsi:*

**n** *səsinin artımı.* Sözlərin sonunda *n* səsinin artımı, əsasən, bağlayıcı, qoşma, şəkilçilərdə, alınma sözlərdə baş verir. Culfa şivələrində də n səsinin artımı mövcuddur: *kimin, batıncan, ge:ncən, qabaxcan, baldun*

Meğri şivələrində söz sonunda n samitinin artımı əsasən alınma və köməkçi sözlərdə baş verir: *məjmeyin, ötərin, baldın, karən, qabaxcan* (6, s.150)

Təbriz dialektində sözlərin axırında n samitinin artımı hadisəsi açıq *a, ə,* qapalı i saitlərindən sonra özünü büruzə verir: *dəhvən<dəfə, kərrən, kimin, təkin*

Söz sonunda *n* səsinin artımı Türkiyə türkcəsinin Kuzeydoğu Bulqarıstan Türk şivələrində (*demiş kin<demiş ki, gaplın gurba<kaplu bağa*), Zonquldak-Bartın-Karabük şivələrində III şəxs təkində (*ö:ledin<ö:ledi, vardın<vardı, mahallemizdeydin<mahallemizdeydi*), Edirne şivələrində (*ilkin<ilk, artıkın<artık, üleliknen<öylelikle, öylen<öyle*) mövcuddur.

Söz sonunda *n* səsinin artımı hadisəsi İraq-türkman ləhcəsi üçün səciyyəvi olub, *daiman, aman<amma, kimin, aslan<əsla,* çünkün kimi nümunələrdə özünü göstərir.

**t** səsinin artımı. Bu səs hadisəsi Culfa şivələrində *hasant<asan, nobat<növbə* sözlərində müşahidə olunmuşdur.

Eyni fonetik şərait Meğri şivələrində də mövcudur: *nobat, təşəxust, hasat*

Nəticə olaraq qeyd etmək lazımdır ki, Culfa şivələrində sözlərin əvvəlində müşahidə olunan *y, h,* sözlərin ortasında *y, h, d, b, v, m,* sözlərin sonunda *n, t* səslərinin artımı dilimizin qədim tarixi köklərinə dayanır və bu gün fonetik hadisə kimi göstərilən səs artımına dair gətirilən nümunələr həmin sözlərin qədim şəkillərində özünü göstərir. Bu isə onu deməyə əsas verir ki, dialekt və şivələrimizdə yaşadılan elementlər Azərbaycan dilinin qədimliyini sübut edən

лиза образцов становиться ясно, что замещение согласных издревле присутствовало в нашем языке и письменных памятниках. Это указывает на то, что называемое на современном Азербайджанском языке явление добавления согласных, на самом деле является древней формой слов. Каждое добавление звуков, исследованное в статье, было изучено сравнительно с анатолийскими диалектами и говорами, а также с диалектами и говорами, литературными языками других тюркских языков. Таким образом, статья ещё раз доказывает, какими глубокими корнями владеет Азербайджанский язык.

**Ключевые слова:** *Джульфа, диалект, говор, добавление согласных, фонетическое явление.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

***Daxilolma:*** ***İlkin variant 13.05.2019***
***Son variant 23.09.2019***